

# Sarı Aşıq və bayatılarımız

***Şifahi xalq yaradıcılığının ən çox yayılmış növlərindən biri bayatıdır. Bayatılarda nəsillərin nəcib hissləri, müqəddəs arzuları, sevincləri, xoşbəxt gələcəyə sarsılmaz ümidləri, tükənməz həyat eşqi tərənnüm olunur, ədalətsizliyin hər cür təzahürlərinə qarşı xalq nifrəti aşıb-daşır. Bayatıların məzmun və formaca ən kamil, klassik nümunələri Sarı Aşığın adı ilə bağlıdır. Xalq arasında onu "Haqq Aşığı" kimi tanıyırlar. Aşığın real həyatla, xalqla sıx bağlı olmasını bu sözlər çox gözəl ifadə edir və bu aşığın haqqın carçısı olduğuna işarədir. Xalq arasında yayılmış "Aşıq gördüyünü çağırar" kəlamına da Sarı Aşıq ömrü boyu sadiq qalmışdır.***

Aşığın təsvir və tərənnüm obyekti canlı həyatdır, zəhmətkeş insandır, saf məhəbbətdir, mübarizə silahı isə haqq sözüdür.

Onun söz çeşməsi silsilə dağların sinəsində qaynayan büllur bir şeriyyət bulağıdır. Aşığın bütün varlığı sanki bayatıdan yoğrulmuşdur. O, rast gəldiyi təbiətin hər bir səxavətinə, insan əməlinə dərhal bayatı qoşur, ulu babası Dədə Qorqud kimi həyat hadisələrinə məna verir, ad qoyur. Onun poeziyasının canı və ruhu insana məhəbbətdir, bütün varlığı ilə sevdiyi Yaxşıya bəslədiyi saf sevgi hissləri də bu məhəbbətlə bağlıdır. Yaxşı sözün əsl mənasında aşığın ilham pərisidir, dünya gözəlidir, onun həyatının mənasıdır. Aşığın pərəstiş etdiyi məbədgah da Məkkə deyil, Yaxşının məhəbbətidir. Öz sevgilisi üçün o, müqəddəs qibləni belə dəyişməyə hazırdır:

*Mən aşıq tərsinə qoy,*
*Tər təni tərsinə qoy,*
*Yaxşını qibləsinə*
*Aşığı tərsinə qoy,*

bayatısı buna tutarlı sübutdur.

Bu bayatını xatırladıqca, gözümüz qarşısında Həkəri çayının sağ və sol sahilindəki üz-üzə baxan iki kədərli məqbərə canlanır. Bu hüznlü mənzərədən sezilir ki, aşıq feodal dünyasının qaynaq etdiyi qalın haqsızılq zəncirini qıra bilməmiş, Yaxşıya qovuşmamışdır. Lakin xalq aşığın vəsiyyətinə görə onları üz-üzə dəfn etmişdir. İlk baxışdan bu mənzərə adama elə təsir bağışlayır ki, Həkəri çayı əsrlərin ağır sükut salları altında yatmış məhəbbətlə dolu ürəklərin həsrətli göz yaşlarından yaranıb. Onun qıjıltılı dalğaları sanki, Aşıqla Yaxşının nakam məhəbbətinin çırpıntılarından yaranmış fəryad selidir.

Aqil babaların söylədikləri bayatıların bir qismində məhəbbət tərənnüm edilirsə, digərində aşığın özünəməxsus hazırcavablığı əks olunur, başqa bir qismində isə kəndin həyat tərzinə aid olan hadisələrin sözlərlə bədii lövhəsi çəkilir, dağlar diyarının əlvan gözəllliklər mənzərəsi açılır.

Sarı Aşıq təbii məhəbbət hisslərinin misilsiz tərənnümçüsüdür, el gözəlləri onun ilham çeşməsidir:

*Qəlyanın odu keçdi,*
*Od qoyun, odu keçdi.*
*Görürsənmi, ay Aşıq,*
*Gözəllər odu keçdi.*

Bahar vaxtı el dağa köçəndə aşıq el gözəllərinin yaylağa köçməsini görüb bu bayatını qoşmuşdur. Gözəlliyi duyub qiymətləndirməyi bacarmayanlara, məhəbbətə laqeyd baxanlara aşıq özünəməxsus mənalı bir yumorla gülür:

*Mən aşiq bu damaqda,*
*Bu kefdə, bu damaqda.*
*Maya nər sövdasında,*
*Nər qanqal budamaqda.*

Burada maya sözü aşığın dilində qənirsiz el gözəli kimi işlənir. Məlumdur ki, xalq arasında həm zahiri gözəllik, həm də daxili paklıq rəmzi kimi ürəyəyatan gözəlləri də ağ mayaya bənzədir və çox zaman

qızların adını Maya qoyurlar. Bu bayatının başqa variantında deyilir:

*Mən aşıq nərgizlər,*
*Bənövşələr, nərgizlər.*
*Göydə bir maya gördüm,*
*Qoltuğunda nar gizlər.*

Sarı Aşıq sınaqlardan çıxmış el hikmətlərinin nəğməkarıdır, "könül sevən göyçək olar" kəlamının carçısıdır. El ağsaqqallarının söylədiklərinə görə, Yaxşının özündən böyük Günəş adlı bir bacısı da varmış. Cazibədarlığına görə, Yaxşıdan gözəl imiş. Bir gün Yaxşının yanında Günəş aşıqdan zarafatyana soruşur ki, o, nə üçün onu deyil, Yaxşını sevir. Aşıq poetik bir dillə cavab verir:

*Aşıq, yaxşıdı Yaxşı,*
*Xalın yaxşıdı, Yaxşı.*
*Günəş də yey gözəldir,*
*Yaxşı yaxşıdır, yaxşı.*

***Sarı Aşığın öz eşqinə son dərəcə fədakarlığı, çətinliklə qatlaşması barədə də inandırıcı fikirlər söyləyirlər. Bir dəfə Yaxşı aşığa turş cavab verib, çünki Yaxşının qardaşı Yaman onların qovuşmasını istəmirmiş. Yaxşı isə orta əsrlərin "valideyn-qardaş" səddini aşıb keçmək imkanına malik deyildir. Aşıq isə bu əzaba dözmür, başını götürüb diyarbadiyar gedəcəyini söyləyir. Yaxşı da ona cavab verir ki, "Tünə get, Təpəsə get". Lakin bu "rədd" cavabını da aşıq bir hədiyyə kimi qəbul edir, düşür yolun ağına. Çox uzaqlarda Təpəslə qoşa duran Tün dağının zirvəsinə çıxır, öz təsəllisini bayatıya çevirir.***

*Aşığa bu da bəsdi,*
*Yaxşıya bu da bəsdi.*
*Yaxşının xatirinə*
*Bu Tündü, bu Təpəsdi.*

El ağsaqqallarının söyləmələrinin birində deyilir ki, bir gün süd kimi aylı-ulduzlu bir gecədə Yaxşının qardaşı Yaman aşığı öldürmək niyyəti ilə onun evinə gəlir və tut ağacına dırmaşıb girəvə gözləyir. Təsadüfən həyətə su götürməyə gələn aşıq onun suya düşmüş siluetini görür və bədahətən belə bir bayatı deyir:

*Aşıq, bu suda neylər,*
*Xalın bu suda neylər?*
*Sən cəllad ki, deyilsən,*
*Qəbzən bu suda neylər?*

Və ya da deyilənə görə bir gün el ağsaqqalları Həkəri çayının sahilindəki dəyirmanın başına yığışıb aşığın barəsində düşünür, onun qayğısına qalırlarmış. Bu zaman aşıq dəyirmana yaxınlaşır və onun üzəri pərdələnmiş dərin novuna baxıb deyir:

*Aşıq, bux pərdəlidir,*
*Baxdıqca pərdəlidir.*
*Nov dərin, su da sərin,*
*Görən der: hər dəlidir.*

Sarı aşıq son dərəcə hazırcavab olmuşdur. O, heç vaxt söz altında qalmamış, yeri gəldikcə öz sözünü demiş və müsahibini sözlə bağlamışdır. Aşıq mürəkkəb sorğu-suallara cavab verir, dərin qıfılbəndləri çətinlik çəkmədən açır. Bir dəfə onun sözünü kəsmək üçün soruşurlar:

*Balıq bənək-bənəkdir,*
*Xalı bənək-bənəkdir.*
*Aşıq deyə bilərmi*
*Araz neçə sənəkdir?*

Aşığın bayatılarında sözlərlə bədii lövhələr çəkilir və bu lövhələrdə təbiət bütün təravəti və ülviyyəti ilə canlanır. Günlərin birində Yaxşıgilin qulunlu madyanı itir. Yaxşı onu axtararkən təsadüfən aşığa rast gəlir və ondan atın yerini soruşur. Aşığın üstünə elə bil gün doğur. Bir qədər Yaxşını əyləmək, onu danışdırmaq məqsədi ilə belə bir müəmmalı bayatı deyir:

*Aşıq deyir göydədir,*
*Göyü yeyən göydədir.*
*Başı qarnı altında,*
*Ayaqları göydədir.*

İlk baxışda Yaxşı təəccüblənir, gözlərini səmaya zilləyir, lakin at göyə çıxa bilərdimi. Əslində aşıq bayatı ilə deyir ki, at göy taxıldadır, göy taxılı yeyir, qulun isə başını madyanın qarnının altına uzadıb əmir, qulunun ayaqları da göydədir, taxılın içindədir. Aşıq Yaxşının çaşıb qaldığına dözmür, ikinci bayatıda mətləbi aydınlaşdırır:

*Aşıq, qəmər, qəmər hey,*
*Beldə gümüş kəmər hey,*
*Göydə bir madyan gördüm,*
*Altda qulun əmər hey.*

Bayatıda atın qəmər rəngdə olduğu, Yaxşının geyim-keçimi, belində gümüş kəməri nəzərə çarpdırılır.

Başqa bir bayatıda Yaxşıgilin danasının itməsindən söhbət açılır. Aşıq yenə Yaxşıya bələdçilik edir və:

*Göydəki göy danalı,*
*Göy yeyən göy danadı.*
*Bax, Aşıq düz söyləyir,*
*O sizin göy danadı.*

- deyib heyvanın səmtini göstərir.

Və yaxud aşıq Yaxşının camış axtardığını görüb deyir:

*Aşıq bu suda qaldı*
*Aşıq bu suda qaldı,*



*Xalın bu suda qaldı.*
*Doqquzu göyə çıxdı.*

Diqqət edilsə aydın olar ki, aşıq təkcə camışın rəngindən və sayından (on üç baş olmasından) söhbət açmır, "xalın bu suda qaldı" deyir. Gölün şəffaf suyu ilə Yaxşının gözəl üzü, camışın qara rəngi ilə Yaxşının üzündəki qara xal müqayisə edilir.

Başqa bir bayatıya diqqət edək:

*Naşı başı bişirir,*
*Bilmir naşı bişirir.*
*Aşıq bir hikmət görüb,*
*Ayaq başı bişirir.*

Yaydır, yazlıq qırmızı buğda yenicə çiçəyini tökübdür, sütüldür. Uşaqlar sütül buğdadan yığıb dəstə bağlayıblar, örüşdə tonqal çatır, taxılın ayağından tutub başını bişirir, sütül eləyirlər.

Aşıq təbii mənzərənin təsvirindən sözlərlə çəkilmiş dərin mənalı sənət tablosu yaradır.

*Mən aşıq dik dikanı,*
*Zirincik dik dikanı.*
*Alıb payın qayıtdı,*
*Göstərdi dik dikanı.*

Zirinc xırda, turşməzə meyvəsi olan uzun tikanlı koldur. Daşaxor güneylərdə bitir, bu cür yerlərdə ilan və kirpiyə tez-tez rast gəlmək olur. Bayatıdan aydın olur ki, kirpi zirinc tikanı kimi öz oxlarını qabardır, ağzı ilə ilanın quyruğundan tutub, qınına çəkilir, ilan başını onun tikanlarına çırpıb ölür, kirpi isə ilanı yeyir.

***Təəssüf ki, Sarı Aşığın zəngin ədəbi irsi tamamilə toplanmamışdır. Bu yazıda nümunə gətirdiyimiz çap olunmamış bəzi bayatıların "Sarı Aşıq" kitabının yeni nəşrində nəzərdə tutulması məqsədəuyğun olardı.***

**Əhliman RƏHİMOV,**
**ADMİU-nin müəllimi**

**Ədəbiyyat:**

1. V.Vəliyev. Azərbaycan folkloru, B. "Maarif", 1985.
2. "Sarı aşıq". B.1966.
3. M.İbrahimov. Aşıq poeziyasında realizm. B. EA-nın nəşriyyatı, 1966.
4. T.Bünyadov. Əsrlərdən gələn səslər. B. "Gənclik", 1975.